

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 12 (23.654)

*20 yanvar 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edib. Dövlətimizin başçısı bütün dünyanın erməni işğalçılarının Qarabağda törətdiyi dağıntıları gördüyünü, XX əsrdə belə barbarlıq, vandalizm və dağıntılar, şəhərlərin və kəndlərin qəsdən məhv edilməsi görünmədiyini deyib. Qeyd olunub ki, işğal edilmiş ərazilərdə dağıdılanların hamısı bərpa ediləcək, artıq bərpa prosesi başlanıb.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibinə, TÜRKSOY-un rəhbərinə müharibə dövründə və müharibədən sonra Azərbaycanı dəstəklədiyinə görə təşəkkür edib, fəal qarşılıqlı əlaqələrə ümidvar olduğunu deyib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev bildirib ki, Azərbaycanın Qarabağda qazandığı zəfər bütün Türk dünyasının böyük zəfəridir. Bu zəfər türk xalqlarını çox sevindirmiş və qürurlandırmışdır. Baş katib deyib ki, 2020-2025-ci illər üçün türk strategiyasının və 2020-2040-cı illər üçün Türk dünyası barədə təsəvvürləri əks etdirən sənədin surətini Prezident İlham Əliyevə təqdim edəcək, bu sənəd bəyənildikdən sonra bir il ərzində reallaşdırılmağa başlanılacaq. Diqqətə çatdırılıb ki, bu il martın sonunda Türküstanda Qazaxıstanın Birinci Prezidenti – Elbası Nursultan Abişeviç Nazarbayevin təşəbbüsü ilə olacaq qeyri-rəsmi sammitə, həmçinin bu ilin payızında İstanbulda keçirilməsi planlaşdırılan Türk Şurasının növbəti sammitinə hazırlıq işləri gedir.

Sonra Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Baş katibi Düsen Kaseinov və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva görülən işlər barədə Prezident İlham Əliyevə məlumat veriblər, türkdilli dövlətlərin və xalqların mədəni irsinə həsr edilmiş kitabları dövlətimizin başçısına təqdim ediblər.

### *Naxçıvanda insan amili dövlət siyasətinin əsas prioritetidir*

## Şahbuz rayonu sosial-iqtisadi inkişafın yeni mərhələsində

Əlverişli təbii-coğrafi şəraitə və turizm potensialına malik olan Şahbuz rayonu böyük inkişaf yolu keçmişdir. Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar, aparılan kompleks quruculuq işləri Şahbuz rayonunu da əhatə etmişdir. Bu gün istər Şahbuz şəhəri, istərsə də rayonun qəsəbə və kəndləri müasir görkəmi ilə seçilir. Son illər tikilən yeni yaşayış və inzibati binalar, çəkilən yollar, eləcə də turizm obyektlərinin, istehsal və xidmət sahələrinin yaradılması, iş yerlərinin açılması Şahbuzda məskunlaşmanı daha da artırmışdır.

## Şahbuz şəhərində yeni yaşayış binası istifadəyə verilib, şəhid ailəsi mənzillə təmin olunub





Son illər muxtar respublikada istifadəyə verilən yaşayış binaları vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həm də məskunlaşmanın və yüksək rifahın göstəricisidir. Muxtar respublikada şəhid ailələrinin mənzillə təmin olunması da daim diqqətdə saxlanılır.

Yanvarın 19-da Şahbuz şəhərində yeni yaşayış binası istifadəyə verilmiş, binada şəhid Mehman Orucovun ailəsinə 2 otaqlı mənzil təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün Şahbuz rayonunda istifadəyə verilən 40 mənzilli yaşayış binasında ilk mənzil şəhid ailəsinə verilir. 1992-ci ildə Sədərək rayonunda Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş Mehman Orucovun ailəsinə 2 otaqlı mənzil təqdim olunur. Ötən illər ərzində muxtar respublikada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda həyatlarını qurban vermiş 42 şəhid ailəsinə mənzil verilmiş, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar. Şəhidlər, qazilər olmadan Vətən torpağı qorunmaz, suverenlik, dövlət müstəqilliyi möhkəmləndirilə bilməz. Ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə Azərbaycan əsgəri daim qəhrəmanlıq göstərmişdir. 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. İstər Vətən müharibəsində, istərsə də Birinci Qarabağ müharibəsində şəhid və qazilərimiz olmuşdur. Sabah isə 20 Yanvar faciəsinin ildönümüdür. Bütün şəhidlərimizə Allahdan



rəhmət, qazilərimizin tezliklə sağalmasını, şəhid ailələrinə isə səbir diləyirəm.

Ali Məclisin Sədri şəhid ailəsinə yeni mənzillərində rahat və firavan həyat arzulamış, mənzilin orderini şəhidin anası Çəməngül Orucovaya təqdim etmişdir.

Şəhid anası Çəməngül Orucova ailə üzvləri adından minnətdarlıq edərək demişdir: “Mənim oğlum Mehman Orucov Birinci Qarabağ müharibəsində Sədərəyin nankor ermənilərin hücumlarından müdafiəsi zamanı qəhrəmancasına şəhid olub. Bir ana kimi qürur duyuram ki, övladım Vətən uğrunda həlak olub. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuzun qazandığı qələbə bütün şəhid anaları kimi, mənə də böyük təsəllidir. Çünki işğal altında olan torpaqlarımız azad edilməklə, həm də şəhid balalarımızın qisası alındı. Şəhid ailəsi kimi dövlətimizin qayğısını daim hiss etmişik. Bu gün bizə verilən mənzil isə həmin qayğının davamıdır. Dövlətimizin bu qayğısını bütün ailə üzvlərim böyük minnətdarlıqla qarşılayır”.

Şəhid ailəsinə verilən mənzildə yaşayış üçün bütün şərait yaradılmış, təmir olunmuş, xalça hədiyyə edilmişdir.

Sonra binaya baxış olmuşdur. Məlumat verilmişdir ki, ümumi sahəsi 5 min 388 kvadratmetr olan binanın tikintisinə 2018-ci ilin avqust ayında başlanılmışdır. Zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan bina 40 mənzillidir. Mənzillərdən 20-si üçotaqlı, 20-si isə ikiotaqlıdır. İkiotaqlı mənzillərin hər birinin ümumi sahəsi 63 və 64, üçotaqlı mənzillərin ümumi sahəsi isə 83 və 88 kvadratmetrdir. Müasir kommunal şəraitlə təmin olunmuş mənzillər fərdi istilik sistemi ilə qızdırılacaqdır. Həmçinin binada mərkəzləşdirilmiş anten sistemi quraşdırılmışdır.

Yaşayış binasının zirzəmisində yerləşən xidmət mərkəzində qadın gözəllik salonu, bərbərxana, dərzi, elektrik cihazlarının təmiri, ərzaq və təsərrüfat malları mağazaları vardır.

Binanın həyətində geniş abadlıq işləri aparılmış, yaşıllıq sahəsi salınmışdır.

*Ardı 2-ci səhifədə*

# Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün müasir iş şəraiti yaradılıb





Əhalinin sağlamlığının qorunması və yoluxucu xəstəliklərin qarşısının alınması səhiyyə sisteminin əsasını təşkil edir. Muxtar respublikada bu sahədə görülən işlər, xüsusilə gigiyena və epidemiologiya sahəsində idarəetmənin təkmilləşdirilməsi, mütəmadi dezinfeksiya işlərinin aparılması və təmizliyə diqqətin artırılması yoluxucu xəstəliklərin yayılmasının qarşısını almışdır. Dünyada pandemiya halını almış virusun muxtar respublikada geniş yayılmaması və epidemioloji vəziyyətin sabit olması da görülən işlərin nəticəsidir.

Yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün yaradılan yeni iş şəraiti ilə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini – Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayeva çıxış edərək demişdir: “Muxtar respublikada səhiyyə sahəsində həyata keçirilən tədbirlər epidemioloji vəziyyətin sabitləşməsinə zəmin yaratmış, insanların sağlamlığı daim diqqətdə saxlanılmışdır. Yaradılan şəraitin və görülən qabaqlayıcı tədbirlərin nəticəsində muxtar respublikada yoluxucu xəstəliklərin yayılmasının qarşısı alınmışdır. Bu sahədə əsas iş Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin üzərinə düşür. Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi tərəfindən də bu sahədə işlər görülmüş, parazitoloji və bakterioloji müayinələr aparılmış, uşaqlar vaksinasiyaya cəlb edilmişdir. Bu da idarəolunan yoluxucu xəstəliklərlə mübarizədə əhəmiyyətli rol oynayır”. Zeynəb Mustafayeva göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ötən il Ordubad Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin istifadəyə verilməsi zamanı Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının Epidemioloji Atlasının hazırlanması ilə bağlı tapşırıq vermişdir. Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini – Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayeva yeni nəşr olunmuş atlası Ali Məclisin Sədrinə təqdim etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün müasir iş otaqları istifadəyə verilir. Şahbuz rayonu 1930-cu ildə yaradılıb. Bu illər ərzində rayon böyük inkişaf yolu keçib, təşkilatlar formalaşıb. Rayonun ötən illərdə inkişafına töhfə verən təşkilatlardan biri də Gigiyena və Epidemiologiya Şöbəsidir. Şöbənin kollektivi tərəfindən rayonda epidemioloji vəziyyətə daim nəzarət olunur, əhali arasında maarifləndirici tədbirlər aparılır. Şahbuz rayonunda 1 şəhər, 1 qəsəbə və 22 kənd vardır. Rayonda 25 mindən çox əhali yaşayır. Əhalinin gigiyenik qaydalara əməl etməsi ilə bağlı maarifləndirmə işlərinin aparılması, eyni zamanda ərazidə epidemioloji vəziyyətə nəzarət üçün şöbənin iş şəraitinin müasirləşdirilməsinə ciddi ehtiyac vardı. Dünyada baş vermiş epidemioloji vəziyyət gigiyena və epidemiologiya sahəsinin nə qədər vacib olduğunu göstərdi. Bütün bunlar nəzərə alınaraq 2020-ci ildə muxtar respublikada bu sahədə struktur dəyişikliyi edilərək Naxçıvan Muxtar Respublikasında Gigiyena və Epidemiologiya Mərkəzi, rayonlarda isə şöbələri yaradıldı. Şahbuz rayonundakı şöbə 26 ştat vahidi ilə fəaliyyətə başladı.

Ali Məclisin Sədri demişdir: Dünyadakı epidemioloji vəziyyətlə bağlı olaraq bu gün gigiyena və epidemiologiya sahəsinin üzərinə mühüm vəzifələr düşür. Adından da göründüyü kimi, gigiyena və epidemiologiya sahəsi bütün dövrlərdə vacibdir. Dünya Səhiyyə Təşkilatının tövsiyəsi də ondan ibarətdir ki, gigiyenik qaydalara əməl edilsin, təmizlik, sosial məsafə qorunsun, ərazilərin epidemioloji vəziyyətinə nəzarət olunması üçün dezinfeksiya işləri aparılsın və əhali daim maarifləndirilsin. Bu sahə daim diqqət mərkəzində olmalı, maddi-texniki bazası möhkəmləndirilməli, kadr potensialının təkmilləşdirilməsi nəzarətdə saxlanılmalı, maarifləndirici tədbirlər keçirilməlidir. Artıq muxtar respublikanın bir sıra rayonlarında Gigiyena və Epidemiologiya şöbələri müasir iş şəraiti ilə təmin olunmuşdur. Bu işlər cari ildə də davam etdiriləcəkdir. Gigiyena və epidemiologiya sahəsində vaxtında görülmüş işlərin nəticəsidir ki, muxtar respublikada epidemiya pandemiyaya çevrilmədi.

Ali Məclisin Sədri kollektivə fəaliyyətlərində uğurlar arzulamış, yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmişdir.

Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin həkim köməkçisi Mehriban İmanquliyeva rayonun səhiyyə işçiləri adından minnətdarlıq edərək demişdir: “Kollektivimiz əvvəllər uyğunlaşdırılmış binada fəaliyyət göstərirdi ki, bu da işin keyfiyyətinə təsir edirdi. Artıq bizim üçün müasir iş şəraiti yaradılmışdır. Bu, daha yaxşı işləməyimizə, əhalinin sağlamlığının və epidemioloji vəziyyətin qorunmasına təminat verir”.

Gigiyena və Epidemiologiya Şöbəsində yaradılan şəraitlə tanışlıq zamanı məlumat verilmişdir ki, şöbədə müdir, epidemioloq, sterilizasiya və dezinfektor otaqları, epidemioloji, bakterioloji, parazitaloji, ümumi sanitariya laboratoriyaları, bufet və anbar vardır. Şöbə nitratometr, dozimetr, PH-metr, termohiqrometr, binokulyar mikroskop, avtoklav, distilyator, sentrifuqa, analitik tərəzi, quruducu və soyuducu şkaflar, həmçinin köməkçi tibbi ləvazimatlarla təmin edilmişdir. Ötən il Gigiyena və Epidemiologiya Şöbəsi tərəfindən rayonda 1620 obyektdə 813 min kvadratmetr sahədə dezinfeksiya, 167 obyektdə 172 min kvadratmetr sahədə isə dezinseksiya işləri aparılmışdır.

Ali Məclisin Sədri bölgədəki turistik ərazilərdə və yaylaqlarda dezinfeksiya işlərinin aparılması, su hövzələrindən nümunələrin götürülərək yoxlanılması, ailə təsərrüfatlarında istehsal olunan konservləşdirilmiş məhsullara nəzarət olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Müstəqilliyimizin 20 Yanvarla başlayan şərəfli yolu

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun xüsusi təlim keçmiş və əsasən, ermənilərdən təşkil olunmuş qoşun hissələri Azərbaycanın paytaxtı Bakı şəhərinə yeridilərək dinc insanları öldürmüş, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutmuş, mülki vətəndaşlara qarşı misligörünməmiş vəhşiliklər törətmişdir. Faciə nəticəsində 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 4 nəfər itkin düşmüş, 841 nəfər qanunsuz həbs edilmişdir. SSRİ Müdafiə və Daxili İşlər Nazirliyinin xüsusi təyinatlıları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təxribat qrupları tərəfindən təşkil olunmuş bu faciə Azərbaycan xalqının öz müstəqilliyi uğrunda apardığı şərəfli mübarizə kimi tarixə düşmüşdür. Bu vəhşiliklərin dünya ictimaiyyətindən gizlədilməsi üçün həmin vaxt dövlət televiziyasının enerji bloku partladılmış, mətbuatın nəşrinə qadağa qoyulmuşdu. Hadisənin törədilməsində əsas məqsəd Azərbaycan xalqının milli oyanışının qarşısını almaq, suverenlik uğrunda mübarizənin önünə sədd çəkmək olsa da, rəsmi Moskva baş verənləri yalan məlumatlar yaymaqla ört-basdır etmək istəyirdi. “Pravda” qəzeti 22 yanvar tarixli nömrəsində Bakıda törədilmiş qırğının əsl mahiyyətini gizlədərək yazırdı: *“Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır...”* Təbii ki, sovet imperiyası rəhbərliyinin Azərbaycana atdığı iftira və böhtanlar xalqımızı müstəqillik yolundan döndərə bilmədi, əksinə, bizi daha da mətinləşdirdi, mübarizləşdirdi.

Nəzərə alaq ki, sovet qoşunlarının 1990-cı il yanvarın 20-də Bakıda törətdikləri qanlı cinayətlər, eyni zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərində erməni silahlı dəstələrinin fəallaşması ilə müşayiət olunmuşdur. Erməni yaraqlıları bütün sərhədboyu Naxçıvana hücum edərək bu qədim diyarı ələ keçirmək istəyirdilər. Hadisələrin eyni vaxta təsadüf etməsi, bunun qabaqcadan, məqsədyönlü şəkildə planlaşdırıldığını, ermənilərin mərkəzi hakimiyyət tərəfindən dəstəkləndiyini bir daha təsdiq edirdi. Lakin naxçıvanlılar öz doğma torpaqlarının müdafiəsi üçün bir yumruqtək birləşərək ermənilər və onların havadarlarının planlarını puç etdilər. Yanvarın 19-da Naxçıvanda 9 şəhid oldu, 30 nəfər yaralandı. Lakin heç kimdən kömək görməyən, blokadaya alınmış Naxçıvan əhalisi düşmənlə mübarizə apararaq muxtar respublikanı işğal olunmaq təhlükəsindən qoruyub saxladı. Naxçıvanda baş verən bu hadisələri ümummilli lider Heydər Əliyev belə dəyərləndirmişdir: ***“Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi”.***

20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında xalqımıza qarşı həyata keçirilmiş qanlı cinayəti pisləmiş, əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi ittiham etmişdir. Ulu öndər Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırmış və aksiyanı törədənlərin məsuliyyətə cəlb edilməsini qətiyyətlə tələb etmişdir. İmperiya idarəçiliyinin mövcudluğu dövründə ölkəni və onun başçısını paytaxtın özündə tənqid etmək böyük cəsarət və qorxmazlıq tələb edirdi. Ancaq SSRİ rəhbərliyinin ünvanına açıq şəkildə söylədiyi fikirlər, baş vermiş hadisəyə, tökülən qanlara kəskin etirazı dahi şəxsiyyətin ən ağır günlərdə belə, xalqı ilə bir olduğunun danılmaz sübutu idi.

Xalqımızın o ağır günlərində ulu öndər Heydər Əliyev Moskvadan doğma Vətənə qayıtdı. Görkəmli dövlət xadimi Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da ovaxtkı hakimiyyət tərəfindən ona böyük təzyiq və hədələr göstərilirdi. Buna baxmayaraq, ulu öndərimiz Vətənə döndü. Dahi rəhbərin öz xalqına olan sevgisi, xalqın da ona olan inamı bütün xain qüvvələrin arzularını ürəklərində qoydu.

Xalqımıza qarşı törədilən bu ağır faciəyə ilk siyasi qiymət də ulu öndərimiz tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində verilmişdir. Ümummilli liderimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında “1990-cı ilin yanvar ayında Bakı

*Ardı 3-cü səhifədə*

hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul olunmuşdur. Həmin tarixi sənəddə deyilirdi: "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır". Qərarda 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi qeyd olunması öz əksini tapmışdır. Həmçinin 1992-ci il yanvarın 13-də daha bir tarixi addım atılaraq "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur.

Məhz görkəmli dövlət xadiminin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Ümummilli liderimizin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunmuşdur. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ümummilli liderimizin təşəbbüsü ilə baş vermişdir.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar hadisələrini Azərbaycan xalqının müstəqillik yolunda mübarizə tarixi kimi xarakterizə edərək demişdir: ***"20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi. Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəmqüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar".***

Görkəmli dövlət xadiminin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, həmin qanlı gecədə sağlamlıqlarını itirənlərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2006-cı il 19 yanvar tarixli Fərmanı və 2020-ci il 30 dekabr tarixli Fərmanla əvvəlki sənəddə dəyişiklik edilərək göstərilən təqaüdün artırılması, "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2011-ci il 19 yanvar, "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 aprel tarixli fərmanları ilə bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısı daha da artırılmışdır.

2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə erməni işğalında saxlanılan torpaqlarımızı hərbi yolla azad etdi. Vətən müharibəsində yüzlərlə qəhrəman Vətən övladı ərazi bütövlüyümüzün real təmini üçün öz canlarını fəda etdilər. Artıq dövlət başçımız tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın azad olunması ilə bu müharibəyə son qoyuldu. Şuşanın azad olunması xəbərini xalqımıza elə Şəhidlər xiyabanından çatdıran Prezident cənab İlham Əliyev demişdir: ***"Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm Birinci Qarabağ, həm İkinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm…"***

Bu tarixi çıxışdan iki gün sonra işğalçı Ermənistan müzəffər Ordumuzun qarşısında diz çökərək digər ərazilərdən çıxmağa və kapitulyasiya aktını imzalamağa məcbur oldu. Beləliklə, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımıza qarşı törədilmiş faciə ilə müstəqillik illərinin ilk şəhidlərini verən Azərbaycan, bundan 30 il sonra yenə şəhidlər verərək bu müstəqilliyin tamlığını – ərazi bütövlüyünü təmin etdi. Müstəqillik uğrunda mübarizlik əzmini tarixin səhifələrinə şəhidlərinin qanı ilə yazan Azərbaycan bundan sonra da öz qəhrəman övladları ilə qürur duyacaqdır.

**✍ Səbuhi HƏSƏNOV**

## Vətənpərvərlik və milli mübarizlik günü



*Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyində 20 Yanvar faciəsinin 31 illiyinə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə əvvəlcə torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov 20 Yanvar faciəsinin tarixi kökləri, onu doğuran səbəblər barədə məlumat verib. Bildirilib ki, 1990-cı ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti məhz ümummilli lider Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışından sonra açıqlanıb. Görkəmli dövlət xadimi Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gücləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək azad Vətənimiz üçün canlarını fəda etmiş şəhidlərimizi ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə yaxından maraqlanırdı. Bu gün Şəhidlər xiyabanında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa edilib.

Daimi nümayəndəliyin rəhbəri ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla, ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərməsindən də bəhs edib.

Çıxışda 20 Yanvar günü hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikasında, muxtar respublikanın şəhər və rayonlarında müxtəlif tədbirlərlə qeyd edilməsindən danışılıb. Diqqətə çatdırılıb ki, məhz ulu öndər Heydər Əliyev məktəbinin layiqli davamçılarından olan Ali Məclis Sədrinin böyük rəhbərin ideyaları ilə həyata keçirdiyi uğurlu fəaliyyətin nəticəsində Naxçıvan Muxtar Respublikasında Vətənə, torpağa, xalqa bağlılığı bildirən abidələrin ucaldılması, həyata keçirilən fəaliyyət proqramları, sosial layihələr, şəhid ailələrinə yüksək diqqət və qayğının göstərilməsi, onlara mütəmadi olaraq pulsuz mənzil, maşın və digər yardımların verilməsi bu qədim diyarda gənc nəsillərin gələcəyə ümid, etibar, Vətənə, torpağa bağlılıq hissinin möhkəmlənməsinə təkan verib, əsaslı zəmin yaradıb.

Anım tədbiri digər çıxışlar və 20 Yanvar hadisələrini əks etdirən fotostendə baxışla davam etdirilib.

**AZƏRTAC**

## "20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq tarixidir" mövzusunda interaktiv dərs

Naxçıvan şəhərindəki Xatirə Muzeyi ilə muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbi arasında "20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq tarixidir" mövzusunda interaktiv dərs keçilib.



İnteraktiv dərsdə bildirilib ki, muzeydə 2 mindən çox eksponat var və onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı müxtəlif illərdə törətdikləri dəhşətli cinayətlərin izləri bu eksponatlarda öz əksini tapıb. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əks etdirən materiallar saxlanılır.

Muzeyin bələdçisi 20 Yanvar hadisələrinə ilk siyasi qiymətin məhz ümummilli lider Heydər Əliyev tərəfindən verildiyini diqqətə çatdırıb.

Şagirdlərə məlumat verilib ki, Xatirə Muzeyində Bakıda və Naxçıvanda baş verən həmin hadisələri əks etdirən çoxsaylı eksponatlar var. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə ümummilli lider Heydər Əliyevin 20 Yanvar faciəsi ilə bağlı imzaladığı fərmanların surətləri nümayiş etdirilir.

Qeyd edək ki, həmin gün muxtar respublikanın bütün ümumtəhsil məktəblərində bir dərs saatı 20 Yanvar faciəsinə həsr olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Akademik İsmayıl Hacıyevin əsərlərindən ibarət sərgi keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən akademik İsmayıl Hacıyevin 70 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər Planı təsdiq olunmuşdur.***

Tədbirlər Planına əsasən yanvarın 19-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında görkəmli alimin əsərlərindən ibarət sərgi və yeni nəşr olunmuş kitablarının imza günü keçirilib.





Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, akademik İsmayıl Hacıyev 54 kitab, monoqrafiya və dərs vəsaitlərinin, 1000-dən artıq elmi, elmi-kütləvi və ictimai-siyasi məqalənin müəllifidir. Onun 1 kitab və 3 monoqrafiyası, 80-ə yaxın elmi məqaləsi xaricdə işıq üzü görüb. Azərbaycanda tarix elminin inkişafına öz əsərləri, tədqiqatları ilə qiymətli töhfələr verən İsmayıl Hacıyev Azərbaycan tarixşünaslığı və elmi mühitində "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" mövzusunun əsas tədqiqatçısıdır. 2019-cu ildə "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublika mükafatının verilməsi haqqında" 2019-cu il 9 fevral tarixli Sərəncamı ilə elm sahəsi üzrə Naxçıvan Muxtar Respublikası mükafatına layiq görülüb. Bu əsər monoqrafiya kimi 2020-ci ildə Sankt-Peterburqda rus dilində çap olunmuşdur. Həmçinin akademik İsmayıl Hacıyevin Rusiya, Türkiyə və Almaniyada da kitabları nəşr olunub. Onun çoxsaylı elmi monoqrafiyaları alimin gərgin və məhsuldar elmi axtarışlarının bəhrələridir.

Azərbaycan tarixşünaslığında Gümrü, Moskva və Qars müqavilələrinin də ilk dəfə olaraq akademik İsmayıl Hacıyevin tədqiqat obyektinə çevrildiyini vurğulayan Surə Seyid qeyd edib ki, akademik İsmayıl Hacıyev həmin müqavilələrin stenoqramını, mətnini Azərbaycan dilinə çevirərək kitab şəklində çap etdirmiş və bu müqavilələrdə Naxçıvanla bağlı məsələlərə aydınlıq gətirmişdir.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin çıxışları dinlənilib. Çıxışlarda vurğulanıb ki, akademik İsmayıl Hacıyevin elmi fəaliyyətinin əsas istiqamətləri Naxçıvanşünaslıq elminin tədqiqi və təbliğinə həsr edilib. Onun elmi fəaliyyəti və nailiyyətləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən yüksək qiymətləndirilib. Alimin 70 illik yubileyinin Bilik Fondunun təşkilatçılığı ilə keçirilməsi bu diqqət və qayğının əyani təzahürüdür.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev muxtar respublikada elmin inkişafına yaradılan hərtərəfli şəraitdən danışıb, AMEA Naxçıvan Bölməsinin onun həyatında oynadığı roldan bəhs edib, 70 illik yubileyinin yüksək səviyyədə təşkilinə, göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra akademikin əsərlərindən ibarət sərgiyə baxış olub. Sərgidə alimin müxtəlif illərdə nəşr etdirdiyi kitabları, respublika və beynəlxalq səviyyəli elmi məqalələri və onun elmi redaktorluğu ilə hazırlanan sanballı elmi-tədqiqat əsərləri nümayiş olunub. Alimin tədqiqatlarında əsas yerlərdən birini tutan "Naxçıvan və naxçıvanlılar" kitabı, "Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri", "Naxçıvanlı diplomatlar", "Tarixdə və günümüzdə Naxçıvan" və digər monoqrafiyaları Naxçıvan Muxtar Respublikasının tarixinə və görkəmli yetirmələrinə həsr edilmiş sanballı və əhəmiyyətli elmi ədəbiyyatlardır. "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər)", "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında", "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1995-2019-cu illər)" monoqrafiyaları alimin elmi yaradıcılığında Naxçıvan mövzusu, onun inkişaf tarixi, xüsusilə XX əsrin 90-cı illərində baş vermiş ictimai-siyasi hadisələrə həsr olunmuş dəyərli elmi-tədqiqat əsərləridir.

Akademik İsmayıl Hacıyevin elmi redaktorluğu və müəllifliyi ilə hazırlanan "Naxçıvan Ensiklopediyası" (iki cilddə), "Naxçıvan Abidələri Ensiklopediyası" (iki dildə), "Naxçıvan tarixi atlası", həmmüəllifliyi ilə nəşr olunmuş "Naxçıvan tarixi" üçcildliyi və digər ensiklopedik nəşrləri də sərgidə nümayiş olunub.

Sərgidən sonra akademik İsmayıl Hacıyev "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1995-2019-cu illər)" monoqrafiyasını, "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" və digər kitablarını imzalayaraq gənc alim və tədqiqatçılara təqdim etmişdir.

**✍ Gülcamal TAHİROVA**

# Qəhrəman yurdun qəhrəman övladları

*Hər kəsin dünyaya göz açdığı torpaq onun üçün əzizdir. İnsan suyu, çörəyi ilə böyüdüyü torpağı sevir, hər kəs öz tutduğu mövqedə Vətəninə xidmət etməyə çalışır. Müəllim savadlı kadr yetişdirməklə, şair torpağını vəsf etməklə, yazıçı gözəllikləri qələmə almaqla, hərbçi isə torpağının hər daşını, qayasını qorumaqla.*

Bu xalq, bu millət millətlər içində imzası olan bir xalqdır. Elə bir xalq ki bir ölüb, min dirilir. Lazım gələndə düşmənin başına şimşək kimi çaxır, dəmir yumruğa dönüb onu pərən-pərən salır. Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: ***“Bu bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır. Siz də yaxşı bilirsiniz ki, son bir il ərzində mən danışıqlar haqqında, ümumiyyətlə, söhbət aparmıram. Xalqımı aldatmaq istəmirdim, heç vaxt aldatmamışam və aldatmayacağam. Azərbaycan xalqı bunu bilir. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımız mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi ki bu gün gəldi. Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq”.***

Bu gün biz müzəffər bir xalqın övladları olaraq başımızı dik tuturuq. Əcdadlarımızın bizə əmanət etdiyi torpaqları mənfur düşmənin qanlı caynaqlarından alıb Vətənimizə qovuşdurduq. Bütün bunlar günlərlə yuxusuz qalıb siyasət masasında səbir və iradə göstərən xalqımızın dahi oğlunun davamçısının və canını Vətənə sipər edən igid övladlarımızın sayəsində oldu. Tarixin bütün dövrlərində qəhrəman bir xalq kimi tanınan azərbaycanlılar 44 günlük Vətən müharibəsində dillərə dastan oldu. Bütün dünya bu kiçik dövlətin ürəyi dağlardan da böyük oğullarının igidliyindən danışdı. Onlar öz şücaətləri ilə əfsanəyə döndülər. Qədim Naxçıvanın qeyrət qalası Sədərəyin igidləri də buradan Qarabağa üz tutub orada başımızı uca etdilər. Döyüşlərdə göstərdikləri qəhrəmanlığa görə Ali Baş Komandan tərəfindən mükafatlandırıldılar. Onlardan bir neçəsi ilə həmsöhbət olduq.

***Murad Həsənov:*** – İki ildir ki, şərəfli peşənin sahibiyəm. Hərbçi olmaq uşaqlıq arzum olub. Burada cəbhə bölgəsində böyüdüyüm üçün uca dağların başındakı əsgərləri tez-tez görür, onlara həsəd aparırdım. Hər dəfə dərsdən gələndə onların yanına gedir, “böyüyəndə mən də sizin kimi olacağam”, – deyirdim. Bu gün müzəffər Ordunun hərbçisiyəm və çox sevincliyəm, çünki mən də Vətən müharibəsinin iştirakçısı oldum. Oraya gedən gündən ən böyük arzum Şuşaya çatmaq, o şəhər uğrunda döyüşlərdə iştirak etmək idi. Mən xəyal belə, edə bilmədiyim Şuşanın işğaldan azad olunmasında iştirak etdim. Azərbaycanın incisi olan bir şəhərə qədəm qoydum. Orada Azərbaycanımızın üçrəngli bayrağının dalğalandığını görmək bizə qürur yaşatdı. Ali Baş Komandanın müvafiq sərəncamları ilə “Şuşanın azad olunmasına görə”, “Döyüşdə fərqlənməyə görə” medalları ilə təltif olunmağım sevincimi daha da artırdı.





***Əmirxan Quliyev:*** – Həqiqi hərbi xidmətimi bitirdikdən sonra müraciət edərək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarında qalmaq arzuma biganə qalmadılar. Xidmətə başladığım vaxtdan, hərbi formanı geyinən gündən bir arzum olub, işğaldakı torpaqlarımızı azad edək. Yurdumuzu Vətənimizə qaytaraq. Artıq 30 ilə yaxın bir zaman idi ki, torpaqlarımız erməni işğalında can verirdi. Harada dünyaya gəlməyimizin, harada böyüyüb boya-başa çatmağımızın fərqi yoxdur. Naxçıvan da bizimdir, Şuşa da, Laçın da, Xocalı da. Vətənin bu başı, o başı yoxdur. O dərd hamımızın idi, hamımız da birlikdə bu yaraya məlhəm olduq. Oktyabr ayının 10-da Naxçıvandan Qarabağa yola düşəndə sevincli idik, hamımız gülə- gülə gedirdik döyüşə. Çünki bir ovuc torpaq qızıldan da dəyərlidir bizim üçün.

Silahdaşlarımızdan bir neçəsi şəhidlik şərbətini içdi, qazi kimi qayıdanlarımız da oldu. Füzuli istiqamətində döyüşlərdə iştirak etdikdən sonra Hadruta, oradan isə Daşaltı və Şuşaya getdik. Oktyabrın 18-də yaralandım, hospitala göndərildim. Yoldaşlarımdan ayrılmaq istəmirdim, iki gün sonra təkid və tələbimlə geri qayıtdım, döyüşlərə davam etdim. Şuşa əməliyyatında iştirak etməyim həyatımın ən unudulmaz səhifəsi olaraq qalacaq. O uca dağların başında yerləşən şəhəri yüzlərlə düşməndən azad etmək xəyal kimi görünsə də, biz bunu bacardıq. O keçilməz meşələrdə saatlarla çiynimizdə silah, üstümüzdə ağır döyüş geyimləri dayanmadan, nəfəs almadan döyüşə-döyüşə gedirdik. Bəzən barmaqlarımızla torpağı cırmaqlaya-cırmaqlaya, bəzən isə bir kolun qanadından yapışa-yapışa çıxırdıq. Aramızda elələri var idi ki, yaralansa da, dözür, hədəfə çatmağa can atırdı. Şuşaya çatanda Köhnəqala tərəfdən hücuma keçdik. Təcrübəli zabitlərimizin və kəşfiyyatçılarımızın əvvəlcədən verdikləri məlumatları sayəsində istəyimizə nail olduq. Qaranlıq bir gecədə gözəl Şuşamızı düşmənin murdar nəfəsindən təmizlədik. Qürurum və sevincim sonsuzdur, çünki illərdir, həsrətində olduğumuz günə çatdı xalqımız. Yaxın günlərdə Ali Baş Komandanın sərəncamları ilə “Döyüşdə fərqlənməyə görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edildim. Dövlət başçımıza minnətdaram ki, bizə belə gözəl günləri yaşatdı.

***Burhan Həsənov*** yaxın günlərdə Ali Baş Komandanın müvafiq sərəncamları ilə “İgidliyə görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib. O deyir:



– Qalib, müzəffər Ordunun Qələbə Paradında iştirak etmək mənə dünyanın ən böyük xoşbəxtliyini bəxş etdi. Bundan gözəl nə ola bilər? Bir hərbçi üçün qələbə qazanmış bir ordunun fərdi olmaq dünyanın ən böyük sevincidir. Vətən müharibəsinin iştirakçısı olub düşmənin illərdir, möhkəmləndirdiyi mövqelərini dağıdıb torpaqlarımızı düşməndən azad etdik. Bu cümləni tələffüz etmək belə, insana qürur yaşadır. Hələ ki orada olub, “irəli” əmrini gözləyib düşməndən təmizlənən yurd-yuvamızı bir-bir görəndə yaranan sevinci sözlə ifadə etmək çox çətindir. Bayrağımızın o torpaqlarda dalğalandığını görmək, oraya ayaq basmaq hər birimizin uzun illərdir, arzusu, həsrəti idi. Artıq bitdi o həsrət. Bitirdik... Biz bir olduq, birləşdik və düşmənə qalib gəldik.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu öz gücünü, qüdrətini göstərdi bütün dünyaya. Və illərdir, xalqımızın ürəyində məşələ dönən Qarabağ yanğısı hər gün gələn qələbə xəbərləri ilə əbədi olaraq söndü. Yurdumuz öz ana Vətəninə qayıtdı.

✍ **Ramiyyə ƏKBƏROVA**



# Real hisslərin ifadəsi

## və ya qalib əsgərin monoloqu

***Naxçıvandan Qarabağ döyüşlərinə qatılan Vətən müharibəsi iştirakçısı öz doğma yurduna qayıdan kimi ilk əvvəl Şəhidlər xiyabanını ziyarət edib. O, şəhidlərimizin görüşünə, döyüş təəssüratlarını bölüşməyə, Qələbə xəbərini verməyə gəlib. Cəsarətli addımlarıyla, qürurlu tərzi ilə Şəhidlər xiyabanına daxil olan igid hərbçimiz şəhid məzarlarının önündə baş əyərək sevinc göz yaşlarını saxlaya bilmir, məzarların qarşısında dayanıb məğrur-məğrur düşünür:***

Vətənimin igid ürəkli, mərd şəhidləri. Qürur duyduğum igidlər. Vətənimin torpaqları uğrunda canını qurban edən, qəhrəman oğullar. Qarabağ torpaqlarından salam gətirmişəm. Görüşünüzə həmişəki hisslərlə yox, fərqli duyğularla gəlmişəm. İllərdir, kaman nələsinin sədaları altında yanınızdan başıaşağı günahkar qəlbimlə ötürdüm. Canınızı qurban verdiyiniz Vətən torpaqları haqqında heç nə deyə bilmədiyim üçün utanırdım sizlərdən. Əzab çəkirdim adlarınızı oxuyanda, danışan məzar daşlarınızda rəsminizə baxanda. Hər dəfə 20 Yanvarda sizi ziyarət edəndə düşünürdüm ki, nə zaman sizə qatillərimizin qanını aldıq, uğruna canınızı fəda etdiyiniz Qarabağ torpaqlarını geri qaytardıq, Qarabağ artıq bizimdir, Qarabağ azadcandır, rahat uyuyun məzarlığınızda müjdəsini verəcəyik? Nə vaxt o üzülən baxışlarınızda bir dəyişiklik edəcəyik? Tapdalanan haqqınızı sizə nə zaman qaytaracağıq? Mənim kimi hər vətənpərvər Vətən övladı bu hissləri keçirirdi, 20 Yanvar tarixində görüşünüzə gələndə. Qəlbimizdə qaysaqlanan yara, ruhumuzda pərvazlanan dua idiniz. Bu gün çoxdandır, gözlədiyiniz o xəbəri gətirmişəm! Mənim kimi minlərlə igid ürəkli oğulların gücüylə. Çox arzu etmişdim, şəhadətə yüksələrək o dünyada görüşüb sizlərdən də çox şeylər soruşum. Qismət olmadı sizin kimi şəhid olmaq. Qalib və sağ qayıtmışam, ilk olaraq da bura gəlib son borcumu yerinə yetirirəm. Söz verdiyim kimi canınızı qoyduğunuz o torpaqların qələbə xəbərini bir dəfə də mən deyim. İndi deyəcəksiniz ki, gec gəlmisən, biz çoxdan bilirik (Səmaya baxa-baxa gülümsəyir). Bilirəm eşitmisiniz qələbə sevincini. Eşitməmək olardı? Yer də, göy də sevinirdi. Biz yer üzündə bayram edəndə siz də səmalarda pərvazlanırdınız. Gözlərim səmalara dikilib sizin rahatlaşan ruhunuzun sevincini təsəvvür edirdi (Gözləri yumulu şəkildə başını səmaya tutur). Bir də mənim dilimdən eşidin o səhnələri. O müharibə epizodlarını...

Sentyabrın 27-si ermənilər döyüşü başlatdı. Köhnə adətlərinə sadiq qalaraq mülki evləri, əhalini hədəf aldılar Tovuz istiqamətindən. Ali Baş Komandanımız əmr verdi və biz də Naxçıvandan qrup şəklində göndərildik. Döyüşə hamı könüllü gedirdi. Kiməsə deyilmədi, sən də get. Hamı cərgəyə düzülmüşdü. Bir bizim uşaqları görəydiniz. Pərvərdigara! Bu nə cür sevincdi, elə bil toya gedirik (Gülür). Kənardan baxan olsaydı, təəccüblənərdi ki, belə də müharibəyə gedərlər? Mütləq soruşardı. Siz o hissləri bizdən öncə yaşamısınız. Yaxşı bələdsiniz ki, real hisslər idarə olunmur. Hamı fərəh içində idi. Gözlərdə aslan cəsarəti vardı. Biz tələsirdik ki, qan udduraq, qanımızı, canınızı qoyduğunuz Vətən torpaqlarının nisgilini parçalayaq, məhv edək. Fiziki qüvvəsinə, cüssəsinə görə heç kim bir-birindən seçilmirdi, qətiyyət vardı, inam vardı, hər kəsdə cəsarət vardı. Amma sizdən bəzi fərqlərimiz vardı. İnkişaf etmiş, hərbi qüdrətə malik bir ölkənin hərbçisi olaraq. Hərbi imkanları müasir standartlara cavab verən mütərrəqi ordunun döyüşçüsü olaraq. Və ən əsası da xalq-ordu-ölkə rəhbərliyinin birliyinin təmsilçisi olaraq. O zamanlar qarışıqlıq, siyasi hakimiyyətin olmaması, özbaşınalıq, böyük Ermənistan yaratmaq xülyaları milli düşüncəmizi də əlimizdən almışdı. Bu çətinliklərə baxmayaraq, siz ov tüfəngi, bıçaqla silahlı düşmənin önünə atıldınız, qəhrəmancasına şəhid oldunuz. Göz görə-görə satqınlıqların qurbanı oldunuz, torpaqlarımız da pusquda duran çaqqal sürüsünün əlinə keçdi. Hər il sizi 20 Yanvarda ziyarət edəndə o çətin şəraitli döyüş səhnələrini gözlərim önünə gətirirdim. Mənən əzab çəkirdim. Bıçaqla torpaq qorumağa gedən ürəkli igidlərimiz, torpaq sevdalılarımızın haqqı mütləq bərpa edilməlidir. Bu mütləqlər gerçəkləşdi.

Şəhidlərim, məzarınızda arxayın uyuyun. Düşmənlərin dərilərinə saman təpə-təpə, qova-qova, siyasi üstünlüyümüzü illər sonra məqamında, beynəlxalq hüquq çərçivəsində həyata keçirdik. Əzəli Qarabağı Azərbaycana birləşdirdik. Hələ bu harasıdır? Naxçıvanın blokadası da yarıldı. Xəbəriniz olsun, gediş-gəliş bərpa olunacaq.

Məni illərdir, düşündürən odur ki, I Qarabağ savaşından sizin də deyəcəkləriniz, xatirələriniz mütləq vardır. İndi onları eşidə bilməsəm də, zamanı çatanda, yəqin ki, bir arada olacağıq. Görüşəcəyik. İndi rahat uyuyun, Yusif Mirzəyev, Bahadur Abbasov, İbrahim Məmmədov, İdris Məmmədov, Səyyad Əliyev, Vəli Zeynalov – siz, ey hər biri bizim üçün qəhrəmanlıq məktəbi olan əziz şəhidlərimiz! Qanınız yerdə qalmadı, siz şəhid olanda bizlərdən hələ heç doğulmayanlar da vardı. Həmin vətənpərvər nəsil Qanlı Yanvarın, Xocalı faciəsinin intiqamını bizə yaraşacaq şəkildə, heç bir qanun pozuntusuna yol vermədən aldı. Həmin torpaqlara qayıdırıq, artıq. Düzdür, ancaq mən danışdım. Amma sizdən soruşacaqlarım da çoxdur. Bir onu bilin ki, o zamanın ov tüfəngləri ilə düşmən qarşısında dayanan qəhrəman oğullar, biz bu gün bu gücü, bu əzmi sizlərdən aldıq. Sizlərdən öyrəndiyimiz təcrübə, mərdlik məktəbi dilinizdən düşməyən birləşmək amalı ilə yumruq olub, zəfər qazandıq. Bir də ölkə başçımız cənab İlham Əliyevin siyasi savadı, nüfuzlu iradəsi ilə “Qarabağ Azərbaycandır!” kəlməsini dedik və bütün dünyaya dedirtdik. 2020-ci il Qələbəsi 20 Yanvar şəhidlərinin, Qarabağ savaşının tapdalanan haqqını, aydınlığa qovuşdurdu. Bizi torpaq həsrətindən azad etdi. Torpaq uğrunda canlarını sipər edən sizin ruhunuzu mənəvi əzabdan xilas etdi. Gələcək nəsillərə qəhrəmanlıq dastanları, nağıllar, romanlar, filmlər ərməğan etdi. Gizlədilən haqqını müdafiə etdi. Xeyrin Şər üzərində qələbəsini hər kəsə sübut etdi. Rahat uyuyun, Şəhidlərim! Bu səfər biz də 20 Yanvarda sizi ziyarət edəndə günahkar, mənən torpaq nisgilli, əzab çəkən ruhumuzla yox, daha alnıaçıq, cəsarətlə, iftixarla, qalib kimi görüşünüzə gəlmişik...

✍ **Türkan HÜSEYNLİ**


### *İtmişdir*

Abdullayev Sərvin Akif oğlunun adına olan 0900258002 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Dəmirçi kənd sakini Vəliyev Bəhruz İsgəndər oğlunun adına verilmiş JN-884A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 54